# "O köhnə filmlər bizə maraqlıdı, dünyaya yox"

## Rasim Balayev: "Bu gün Azərbaycan kinosu durğunluq dövrünü yaşayır"

**Xalq artisti Rasim Balayev "Kaspi"-nin suallarını cavablandırdı. Aktyor koronovirusdan özümüzü kifayət qədər qoruya bilmədiyimizi deyərək, insanların izolyasiya qaydalarına ciddi əməl etmədiyini vurğuladı. Xalq artisti 5 ay əvvəl əməliyyat olunduğunu və bugünlərdə yenidən müayinə ehtiyac duyduğunu bildirdi.**



**- Rasim müəllim, karantin günlərində nələr edirsiniz, özünüzü necə hiss edirsiniz?**

- Artıq 4 aydır ki, evdəyəm. Heç bir yerə getmirəm, karantin qaydalarına əməl edirəm. Bilirsiniz ki, 5 ay bundan qabaq əməliyyat olunmuşam. Həm virusdan, həm də bu kimi xəstəliklərdən özümü qorumağa çalışıram. Türkiyədə əməliyyat olunmuşam. Həkimim demişdi ki, 4 aydan sonra müayinəyə gəl. Yayılan pandemiya ilə əlaqədar müayinəyə də gedə bilmirəm. Sərhədlərin açılmasını gözləyirəm. İmkan yaranan kimi müayinəyə getmək istəyirəm.

**- Hazırda bir çox insanlar bu virusun varlığına inanmadığını, böyük güclərin bir oyunu olduğunu hesab edirlər...**

- Necə yəni virus yoxdur? Əgər bu, sadəcə, bir oyundursa, niyə bütün dünya bu oyunun əlində çarəsiz qalıb? Dünyada nə qədər insanlar bu xəstlikdən dünyasını dəyişiblər. Onlar da yalandır? Olmayan bir virusla bu qədər mübarizə aparmaq olmaz. Mən belə şeyləri eşidəndə çox məyus oluram. Bəzən görürəm ki, insanlar karantin qaydalarına əməl etmirlər, heç nə olmamış kimi hərəkət edirlər. Belə ki, maska taxmırlar, sosial məsafəni qorumurlar. Ötən gün bazara getdikdə, gördüm ki, ordakı insanların, demək olar ki, yarısının virus vecinə deyil. Belə olmaz axı. Adamlara necə başa salasan? Niyə belə edirlər? Telekanallarda, mətbuatda maarifləndirici xəbərlər, materiallar yayılır. Ötən gün oxuyuram ki, bir nəfər toy edib. Adam bilmir gülsün, yoxsa ağlasın. İnsanları başa düşürəm, evdə qaldıqca sıxılırlar. Ancaq düşünmürlər ki, bir nəfər 20-30 nəfəri yoluxdura bilər. Çox təəsüf ki, bizim insanlarımız karantin qaydalarına ciddi riayət etmirlər. Əvvələr deyirdilər ki, bu virus necə var ki, bir dənə belə olsun tanışım, qohumum yoluxmayıb. Qaydalar yumşaldıqca ölənlərin sayı çoxaldı və o çoxluqlar bizim tanışlarımıza, qohumlarımıza çevrildi. Mətbuatı oxuyanda isə insan vahiməyə düşür. Bu mövzu o dərəcədə çox işlənilir ki, inanmamaq mümkün deyil. İnsan mətbuat da izləməyə qorxur.

**- Xəbərləri sosial şəbəkələrdən, yoxsa saytlardan oxuyursunuz?**

- Saytlardan oxuyuram.

**- Bəs qəzet?**

- Əvvəllər qəzetləri də oxuyurdum. İndi məhləmizdəki köşkün yanına gedəndə görürəm ki, bağlıdır. Mən sovet dövrünün adamıyam, məlumatı qəzetlərdən almağa öyrəşmişəm.

**- Rasim müəllim, sizinlə söhbət edib kinodan danışmamaq mümkün olmaz. Bu gün çəkilən filmlər sizi qane edir?**

- Bugünkü kinolarımızın bir çox problemləri var. Əvəllər tarixi filmlər çəkilərdi, gənclər, insanlar öz tarixindən xəbərdar olardı. İndi belə filmlər çəkilmir. Deyirlər ssenari yoxdur. Mübariz kimi qəhrəmanı olan bir ölkədə ssenari necə yoxdur? Torpağı işğal altında olan bir dövlətin film çəkməyə ssenarisi niyə olmasın? Bu torpaqların müdafiəsi üçün canlarından keçən o qədər qəhrəmanlarımız var ki...

**- Axı dünya bizim sovet dönəmindəki kinolarımızdan, sənətkarlarımızdan da xəbərsizdir.**

- Bizim gəncliyimiz Sovet dövrünə düşdü, yadımdadır, xaricə sovet filmlərini göndərmək lazım olanda Moskva öz filmlərini göndərirdi. Bizə heç nə deyən olmurdu. Əsas öz filmlərini, işlərini göstərirdilər. Bu gün də vəziyyət onun kimidir. Düzdür, bu gün şərait yaranıb, hətta görürəm ki, gənc rejissorlarımız xarici festivallara gedirlər. Bunun özü gözəl haldır. İndi əvvəlki dövr deyil, kompüter filmləri çəkilir. Amma elə filmlərimiz yoxdur ki, gedib o beynəlxalq festivallarda uğur qazansınlar və səsi-sorağı dünyadan eşidilsin.

**- Ancaq köhnə filmlərimiz bu gün də sevilir və izlənilir. Bunun sirri nədir, sizcə?**

- Köhnə filmlər müasir standartlara cavab vermir. İndi texnika inkişaf edib, müasir effektlər çıxıb, müasir filmlərə ehtiyac var. Köhnə filmlər qaldı keçmişdə. İndi keçmişdə yaşamırıq axı. O köhnə filmlər bizə maraqlıdı, dünyaya maraqlı deyil.

Müharibə şəraitində olan ölkəyik. İnsanlarda vətənpərvərlik, torpağa bağlılıq ölkəni sevmək kimi hisslər yaratmaq lazımdır. Bunu da, daha çox filmlərlə edə bilərik. Hanı o mövzuda çəkilən filmlərimiz? O maştablı filmləri çəkmək istəyənlər yoxur. Adi məişət mövzusnda az vəsaitlə film çəkilir, onlar da müəyyən bir tamaşaçıya ünvanlanır. Kino sahəsində vəziyyət ürəkaçan deyil.

**- Bizdə bu potensial yoxdursa, tarixi filmlərimizi çəkməyə istedadlı rejissorlar, aktyorlar necə tapılıb?**

- O zamanlar "Nəsimi", "Babək", "Dədə Qorqud" kimi filmlərimiz çəkilirdi. Bunlar hamısı Heydər Əliyevin təşəbbüsü ilə çəkilən filmlər idi. Bu gün kinoya kifayət qədər pul ayırılır, amma film çəkən təşkilatlar, sanki ağır yükün altına girə bilmirlər. İstək olmalıdır, istedad olmalıdır. Bu gün, çox təəsüf ki, Azərbaycan kinosu yox dərəcəsindədir. Əvəllər çəkilən filmlərimiz 5 il kinoteatrlarda nümayiş olunurdu Bu gün kinoteatrlar nə göstərir? Komediya və xarici filmlər. O filmlər boş "hır-hır" dan başqa bir şey deyil. Mən aktyoram, sosiloq deyiləm. Sizə ancaq onu deyə bilərəm ki, bu gün Azərbaycan kinosu durğunluq dövrünü yaşayır. Həm mövzu, həm də rejissorluq sahəsində ortaya çıxarılası filmlərimiz yoxdur.

**Xəyalə Rəis**